

## *BEKBOLOT SARIBAY*

(БЕКБОЛОТ САРЫБАЕВ) –

*22 may 1995-ci ildə Calalabad bölgəsinin*
*Suzak elində doğulub.*
*2012-ci ildə M.Orozaliyeva ad. orta məktəbi bitirib.*
*MANAS Universitetinin Türkoloji bölümünün*
*IV kurs tələbəsi,*
*Uluslararası "Nur borbor"*
*Yaradıcı Gənclər Akademiyasının və*
*DGTYB-nin üzvüdür.*

## *STÜARDESSA*

Yolçusu az olan bir uçaqdayam,
Vətən qucağını açıb, dönürəm.
Boş yerləri odur sanki, dolduran,
bu xanımı yaxın bir dost bilirəm.

Yerləşdirər hər bir kəsi yerində,
Bir başqa gözəldi üzü – gülüncə.
Yolçuların gör nə qədər qayğısı,
Düşür onun zərif çiyinlərinə.

Bəlkə, bir az çox danışdım, qoy susum,
Ürəyimdən nələr keçir... nə deyim..?
Ona “mən şairəm” dediyim anda,
“Sahimi? Bir şeir oxu...” söylədi.

Yüz illəri bircə ana sığdıran
O Günəş üz, başdan-başa sehrmi?
Diləklərim çiçək açdı qəlbimdə,
Ona ad edirəm mən bu şeirimi.

Yəqin, hər gün göy üzünə baxar o,
Oralarda bir də məni xatırlar.
Üzü təzə doğmuş Aya oxşayır,
Amma o da mənim gülümə çatmaz...

***

Hər gün həyəcanla peşinə düşdüm...
istəyim: səninlə göz-gözə gəlmək..!
Hərdən gülə-gülə qarşılaşsaq da,
baxa bilmədiyim film kimisən...

Əndamın görüncə, nitqim tutulur,
Deyəsi sözüm də yadıma gəlmir.
Biz yetincə filmin tən ortasına,
Reklamtək yetişir ananın səsi...

Dağ başından çıxan Aya bənzərsən,
Hər an haldan-hala salırsan məni.
Filmi yar-yarımçıq başa vurmamış,
yetişir bir daha ananın səsi...

Alovlandım,
                    ataş nədir, bilirəm,
İndi evinizin düz böyründəyəm.
Sənin köpəyinlə isnişdim, sənsiz,
Evdən gətirdiyim yeməklər ilə...

Sevgimin qüdrəti artar günbəgün,
Sevdalar dəqiqə, saatı bilməz...
Mən gözlərəm filmin son bölümünü,
Kimsə varmı, işi düzəldə bilə?..

## *ANA DİLİM*

Əvəzsiz nemətdir ana dilimiz,
Tayı yoxdur, gəzsən də dördbir yanı.
Anam öz dilində əzizlər məni,
tanıdım bu dillə bütün cahanı.

Yaşamaq olarmı heç ana dilsiz?
Könlüm öz dilimdən güc alır mənim.
Tanrıma bu dildə sığınıram mən,
Bu dildə danışır sevgi şeirim.

Bir yad eldə duysam, qəlbim ovunar,
Əbədi dastandır – tükənməyi yox..!
Bir ocaqdır ana dilim, soyumaz,
Dosta könül evi, düşmənə bir ox..!

Qədimlərdən miras qalıb bizlərə,
Gücüm qədər mən də onu bəslərəm.
Qiyamət günündə haqq-hesabımı
yenə öz dilimdə vermək istərəm...

(Çevirən: **Xan RƏSULOĞLU**)